Yolu çətin imiş xoşbəxt olmağın,
Sevgi də, ilqar da bəs eləmirmiş.
Gözümüz günahsız-günahsız baxır,
Amma günahkarıq, nə qəribə iş...

* * *

Yanar için-için bir eşqin qəmi,
Ürəyim heyrətdən donub qalıbdır.
Xəfif gülüşlərin qaranquş kimi
Kimin yaddaşına qonub qalıbdır?

Sən keçən yolları arayım, gəzim,
Görüm ki, gəncliyin harda ötüşüb.
Pozum izlərimlə o izləri ki,
Sənin izlərinlə yanaşı düşüb.

Neçə xatirən də qoy dönsün selə,
Qalmasın keçmişdən sondə bir nişan.
Mən öz səksəkəli öpüşlərimlə
Silim baxışları yanaqlarından.

Bir başqa dünyaya atıldıq bu gün,
Gül bu arzuma da, de ki, dəlisən.
Sən mənim ömrümə doğulmaq üçün
Bütün keçmişini öldürməlisən...

Hər kəs bilir ki, onun çiynində nə isə qeyri adi bir yük var, amma ciddi-cəhdlə bu yükü unutmağa çalışır. Çünki yada salan kimi etiraf etməlidir ki, belə yaşamaq olmaz. Bəs necə yaşayasan? Hələ ki, ayrı cür yaşamağın da yolu tapılmayıb. Beləcə bir nəsil bir-birinin üzünə baxmaqdan çəkinə-çəkinə dünyada hər şeydən danışır və ürəyini əridə-əridə çalışır ki, ən başlıca şeydən danışmasın. Axı o qeydən danışan kimi nə isə bir iş görmək lazım gələcək. Bu adamlar üçün isə bulaqdan, qeyrətdən, qələbədə, Təbrizdən, kainatdan danışmaq balaca bir iş görməkdən daha asandır.

ŞAİRLİK NƏYİMƏ GƏRƏKDİR MƏNİM?

Şairlik nəyimə gərəkdir mənim? –
Şerdə təsəlli aramaq üçün!
Təzə söz deməyə gümanım azdı,
Yazıram köhnəni qorumaq üçün...

Söz qoşmaq şan-şöhrət gətirir məgər? –
Söz var üzüqara, söz var üzü ağ...
Dünyada ən böyük sənətdir, demə,
Öz ana dilinə keşikçi olmaq!

Öz ana dilimə, ana sözümə
Bir təzə kəlmətək qoşula bilsəm;
Sinəmə səpilən od yağışından –
Yad sözdən, yad ruhdan yaşına bilsəm,
Demək, çiçəklənən cavan budağam,
Mən söz əsgəritək yaşayacağam!

Şerim! Müdafiə məğlubiyyətsə,
Hər hücum qələbə deyildir, anla!
Sən qalib gəlirsən bəzən bir sözü
Zirehə bürüyüb qorumağınla!..

Bu dil tükənməyən xəzinəm, varım,
Ulu soylarımın müqəddəs izi...

Yurdumda ucalan qalalarımın
"Ana" kəlməsidir ən birincisi!

"Araz" kəlməsidir, "can" kəlməsidir
Mənim damarımdan qan kimi axan.
Tarixə çox qurban verdim, bəsidir,
Qurbanlıq düşməyir məğrurluğumdan...

Şairlik nəyimə gərəkdir?
Deyim!
Şerdə təsəlli aramaq üçün.
Təzə söz deməyə gümanım azdı,
Yazıram köhnəni qorumaq üçün.
Özümü qorumaq odlar içində,
Adımı qorumaq adlar içində,
Mənim bu narahat qəlbim sınmasın
Xoşbəxtlər içində, şadlar içində!

Son dəbli geyimdir yalançı şadlıq,
Son dəb dodaq rəngi – yalançı gülüş.
Ən böyük xoşbəxtlik böyük Doğrunu
Xırda yalanlardan qorumaq imiş!

Xırda sevgilərin bazarı ucuz,
Qəlp pulun, qəlp sözün qılıncı iti.
Necə qoruyasan hiylə odundan
Kəpənək qanadlı bir məhəbbəti.
Ürək alverindən, söz alverindən
Keçən İnam adlı əbədiyyəti?

Şairlik nəyimə gərəkdir mənim?
Şəhərdə bir kəndin borc duyğusuyam.
Dilimdə təzə söz bitirməsəm də,
Şadam ki, köhnənin qoruqçusuyam!..

5.III.1980

ƏLƏK

Metroda bir qarı əlində ələk aparırdı...

Ay nənəcan, hardan aldın
əlindəki bu ələyi?
O yadıma saldı mənim
təndir adlı, ocaq adlı
bərəkətli sadəliyi.
Xatirəmdə bahar güldü,
xatirəmə gül bələndi.
Bir xırmanda vəl qoşuldu,
sarı buğda təpələndi.
Evnə çağı
qaranəfəs külək gəldi.
Sovruqçular
əllərində kürək gəldi.
Dəyirmanlar gur işlədi,
dəstərxanda ələk gəldi.
Təndirlərin külfəsində
od işardı,
tabaq-tabaq çörək gəldi.

Anamızın əli unlu, üzü unlu,
Həyətdəki izləri də unlu idi.
Təndirimiz od dilində danışardı,
Təndirlərin həndəvəri tünlük idi.
Ələklərdə unla birgə
ələnərdi duyğumuz da.
Kökə-kökə, tikə-tikə
bölünərdi sevincimiz,
bölünərdi qayğımız da.
Öz duzumuz, çörəyimiz...
halallıqda şax böyüdük.
Təndirlərin dövrəsində
gözü-könlü tox böyüdük.

Hər həyətin öz ocağı,
hər ocağın öz həniri...
Xəmir yoğur bu gün, anam,
Kündəni sal iri-iri.
Barmağının izi qalsın
Zəfəranlı çörəklərdə.
Ürəyinin közü yansın
səndən qopmuş ürəklərdə!

Çay donubmu,
dəyirmanlar təbdən düşüb?
Bəlkə daha
isti çörək dəbdən düşüb?!
Səkkizinci mərtəbədə
ələyimiz ələnməyir,
diləyimiz dilənməyir.
Bəlkə elə buna görə
rəngi solur körpələrin –
Zəmi kimi boy atırıq,
sünbülümüz tellənməyr.
Bəlkə elə buna görə
qarın şişkin, gözsə acdı...
Niyyətlərin, arzuların ələnməsi,
hər tikənin halallıqla bölünməsi
vaxtı çatmış ehtiyacdı!
Bol süfrələr görmüşəm ki,
bərəkətsiz,
Maşınlılar görmüşəm ki, –
hərəkətsiz.
Ehtiraslar səhrasında
saf çeşmətək dilək çatmır,
Fikrimizi ələməyə
bir müqəddəs ələk çatmır!

Dilək... Ələk...
Kimə isə bu kəlmələr
dəbdən düşmüş görünəcək.

Mən onları özül saydım,
zəmin saydım!
Bacarsaydım,
vəzifəyçün sinə gedən,
Vətəndən də rüşvət güdən,
Sayəlilər sayəsində
bazar açan, at səyirdən
"cənabları" keçirərdim mən ələkdən!
Qoy haramlıq duyulmasın
yediyimiz duz-çörəkdən!
Ay nənəcan, qurban olum
əlindəki ələyə də.
O balaca köksündəki
dağlar boyda diləyə də!..

1978

SƏTTAR BƏHLULZADƏ KÜÇƏSİ HAQQINDA ŞƏHƏR SOVETİNƏ AÇIQ MƏKTUB

Geniş, rahat, işıqlı
filankəs küçəsindən
Ayrılır cığır kimi
Bəhlulzadə küçəsi.
Gündüzü toz içində,
qaranlıqdır gecəsi.
Xutorun yarıuçuq
evləri arasında.
Qəlbimin yarasında
Yaşayır əyri-üyrü
quruca bir budaqtək.
Eni beşcə addımdır,
boyu adından gödək.
Paslı, qara dəmirdən
yamaq-yamaq hasarlar,

Gecəqondu evlərin
çirkab suları,
Divarların dibində
tüstülənən zibillik,
Köhnə ayaqqabılar,
konserv qutuları...
Səttar Bəhlulzadənin
adınadır bu küçə!
Yoldaş şəhər Soveti,
harda belə deyilmiş?
Üstündə gəzdirdiyi
bir dahinin adına
Gördüm köhnə divarlar
tablamayıb əyilmiş...
Vətənin hər dağında
bir möcüzə görən kəs,
Yurdun milyon rəngini
dünyaya göstərən kəs,
Hər ağaca, hər quşa
daimi ünvan verən,
Fırçasında Bakının
daşına da can verən
Rəngsiz, cansız, hayansız
divarlara sinərmiş!
Ömrü zərvədə keçən
axır gəlib bir xəlvət
döngədə gizlənərmiş!
...Balaca küçələrə
verdik böyük adları.
Qala divarlarına,
bir dalana sıxılıb
Sabirin qanadları.
Nizamiylə Füzuli
bir ünvana şərikdi,
Cabbarlı küçəsinin
boyu bircə çəlikdir.
Bir şəhərdə nə qədər

"Zavağzalnı" olarmış?
"Perevalnı" olarmış?
"Onuncu Paralelnı",
"Otuzuncu Bazarnı"...
Niyə ucuz görmüşük
bu küçə bazarını?
Düzü, heyrətə gəldim
bu küçəni görəndə.
Amma heyrət neyləsin?
Burda qeyrət gərəkdir!
Qoparıb qaranlıqda
darıxan lövhələri
Düzəsən yaylaqların,
çəmənlərin, çöllərin
ondan ölməzlik almış
çiçəklərin içinə.
Adına bir dalan oldu-olmadı,
Bəhlulzadənin nə vecinə?!

2.V.1978

ŞƏHƏR KƏNARINDA...

Şəhər kənarında avara itlər
Məqsədsiz, mənasız dolaşır elə,
Bir sümük üstündə.
sümsük üstündə
Küsüşür, barışır, dalaşır elə...

Şəhər kənarında avara itlər
Dəstə-dəstə, sürü-sürü...
Boşluğa ulaşır, kölgəyə hürür.

Şəhər kənarında hələ nə qədər,
Bir yazıçı demiş: "güllü dərələr"...
"Güllü dərələrdə dilsiz-ağızsız,

Bir ağac altına, bir daş dibinə,
Bir ümid qoynuna "propiskasız"
Avara itlər...

Zavod həyətində, mədən içində,
Özləri görməyən, görüb duymayan,
Bitib-tükənməyən dərdin içində
Qəzəbi – xatirə, hücumu – yalan,
Əslindən səsləri nişanə qalan
Qayğısız məxluqlar, bomboz sifətlər
Avara itlər...
Hərəsi bir evə keşik çəkərdi,
Hirsləri həyətdə zəncirlənərdi...
Gəmirə-gəmirə öz hirslərini,
Hasar çəkərdilər – qorxu adında
Qorxunun özünə çevrilərdilər!
Ömrü bir otağa, bir evə bağlı,
Dostluğun rəmzinə çevrilərdilər!..
Ya da bir çobanın sağ əli kimi,
Sədaqət, etibar heykəli kimi,
Oba qırağında, sürü içində
Bir sıyırma qılınc, bir polad xəncər,
Bir iti ox kimi ömr edərdilər...

Şəhər kənarında avara itlər...
Gözlərinin odu qalmayıb daha,
Özlərinin adı qalmayıb daha...
Hansı nəsildəndi, hansı qandandı,
Cinsi hansındanlı, yaşı neçədi –
Min çeşmənin suyu qarışıb gedər...
Təkcə it kəlməsi qalsa da, amma
Neçə it nəslinin öz adı itər...

1.VIII.1979

BU CAVAN YAŞIMDA...

Bu cavan yaşında stol dalında,
Qoymayım, kişilər qocala bilər.
Əkin tanımayan, biçin görməyən
Qollar işsizlikdən qıc ola bilər.
Üzdə ad-sanları boy atanların
İçləri çürüyüb puç ola bilər...

Sərgi mənzilləri genişlənsə də,
Orda ürəklərin kiçilməsi var.
İndi sevgilərin, əqidələrin
Stollar boyuna biçilməsi var.

Yorğa maşınları havalansa da,
Ayağı düz yolda titrəyən, əsən,
Büllur çıraqları par-par yansa da.
Ağıl çıraqları keçdi, görərsən.

İclas salonunun sıralarından
Nə tufan görünər, nə yağış, nə qar.
Evlər-idarələr aralarında
Bir ömrün mənasız təkrarı başlar.
Katibə dəmləyən çayın dadı da,
Bircə kabinetlik istedadı da,
Təkrardı... gülüşü, salamları da,
Yad dilin qəribə qarışığından
Bəzənmiş ədalı kəlamları da...
Bu cavan yaşında stol dalında
Yaxşıyla yamanı ayırmaq çətin.
Yaxşını pislərin məngənəsindən
Xəncər tiyəsitək sıyırmaq çətin,
Qoruyub vəzifə rəsmiyyətindən
Öz ata adını saxlamaq çətin...
Rüşvət sınağında, alver odunda
Zərif qanadını yoxlamaq çətin...

...Bu cavan yaşımda, stol dalında
Üstümdə ətalət pəncəsi yaşar,
Fikrimdə bir qədim cəng səsi yaşar.
Gündoğan, günbatan arasındakı
Yolları otlanmış, ilxısı ötmüş,
Arxları qurumuş, zəmisi yanmış
Babamın bir nağıl ölkəsi yaşar.

Bu cavan yaşımda, stol dalında
Güclü yumruqlarım boşalmaya kaş.
Bu cavan yaşımda, stol dalında
Otura-otura daş olmayam kaş!..

12.VIII.1979

SALAM, GƏNCƏ QAPISI

Kutaisi yaxınlığındakı Gelati monastırında
qədim Gəncə qapısını gördüm...

Salam, Gəncə qapısı,
qürbətdəki qardaşım.
Salam, duzum, çörəyim,
poladlaşan göz yaşım!
Əllərimin izini
itirməmiş qar, yağış.
Həsrətli gözlərimsən! –
düz səkkiz əsrdi ki,
qapandığın olmamış...
Səkkiz yüz ildi paslı,
dəmir damarlarından
qan kimi axır həsrət.
Yarım milyonluq şəhər,
Şərqlə Qərb arasında
iqtişaşlı məmləkət...
Önündə diz çökərdi,
sənə səcdə qılardı
cahangir də, kölə də.

O təntənə, o şöhrət.
o zəlzələ, o qırğın
ruhundadır hələ də!

Salam, Gəncə qapısı,
Nə Qurucu David var,
nə qapı oğruları;
Payız yarpaqlarıtək
bir küləyə bənd imiş
talançı orduları...
Amma sən yaşayırsan!
Vaxtı, zoru, hiyləni
yenən bir sərkərdə tək.
Səhnələr dəyişsə də,
dəyişməyən pərdətək!

Salam, Gəncə qapısı!
Zəlzələnin altından,
vuruşların odundan
Qalxdı, dikəldi yenə
sənin doğma şəhərin!
Yazıldı təzə-təzə
dəmir səhifələri.
Ucaldı qədim Gəncə –
ancaq daha divarsız,
qapısız, darvazasız.
Nəfəs dərmək istədi
zəlzələsiz, davasız.

Qanadı daha geniş
üfüqlərə sərili,
Sinəsi əzəlkitək
namərdliyə gərilib.
Min qonağın üzünə
açıla bilər hər gün
qapıları min yerdən.
Yanaşı çinarları
yaşıl darvazalardı –
qalxır yerdən göyəcən!

Salam Gəncə qapısı!
Sənin daş qulağında
milyon zınqırov səsi.
Qapı desəm az olar,
Sən mənim ürəyimin,
ruhumun möcüzəsi!
Bilmirəm nə vaxt açdım
səni, kimin üzünə?
Fəlakətin üzünə,
dərdin, qəmin üzünə...
Bağlamaq çətin oldu
sonra açıq yolları.
Nələr getdi, nə zaman
hansı darvazalardan –
"Vətən boyda bazardan"?
Salam, Gəncə qapısı!
Ürəyimdə heç kimin
gözünə görünməyən
sehirli bir qapı var –
sənin əksin, surətin!
Ürəyimdə heç kimin
gözünə görünməyən
sehirli bir divar var –
başına dolanıbdır
bu ulu məmləkətin!..

Kutaisi, 5.VI.1980

NƏYƏ GƏRƏK BELƏ QARDAŞ

Bəzi rayonlarda qədim abidələri uçurub daşını, kərpicini daşıyırlar...

Milyon-milyon nəsil keçib,
bu torpağın özü qalır.
Yer altında, yer üstündə
keçmişimin izi qalır.

Ocağımın, oymağımın hər qatında,
Nəğmələrin, laylaların qanadında
Yaşamışıq möcüzələr ümidinə.
Yol açmışıq
nəslimizin təzə-təzə ümidinə.

Külüngünü sən vuranda o divara
Öz əlinlə öz sinəndə açdın yara.
Tarixin bir vərəqitək
ovulanda əlində daş –
Özünü kor qoyduğunu
düşünmədin niyə, qardaş?
Gözə dəyən nəyimiz var yad aparmış,
Sel aparmış, yel aparmış,
od aparmış...
Bir yandan da biz özümüz,
bizim iti iştahamız,
"mənim olsun" ehtirası –
Uçan divar, daşınan daş,
itən yazı.
Uluların bu qalanı ucaltmışdı
elin üçün,
yurdun üçün,
sənin üçün,
Sənsə yıxıb daşıyırsan
toyuğunun hini üçün!..
Qədim bir yurd uçduğundan
daş aparmaq – qənimətin...
İndimizə yük olduğun bəs deyilmiş,
Kökünə də od vurursan bu millətin!
Sən tək olsan – qəzəbimə yer olmazdı,
Kişilərin ucaltdığı
nakişilər əllərində uçulmazdı.
Qələmiylə, yazısıyla
xalqa ləkə yaxanlar var.
Tarixçi diplomu üçün
tariximi yıxanlar var.

Keçmişi də qurban verir şöhrətinə,
Öz-özünə ləkə yaxar
başqasının hörmətinə,
Elə bil ki, yad ananın
yad bətnindən doğulubdur.
Allahı da yad olubdur.
Yad gəlməsə, o yox imiş,
Yad qartaldı, o – hinlərdə toyuq imiş.
Adını da yadlar verib,
Ocağına odunu da yadlar verib.
Doğulduğu bu el belə,
danışdığı bu dil belə
xəyalında bir bəxşişdir,
Neçə özgə muzey görüb,
Nizaminin türbəsini görməmişdir!..
Soyumuzu dağa çəkən, daşa çəkən,
Çörəyimlə alim olub,
mənə gülüb, nəşə çəkən!
Özümüzü içimizdən yeyən qurdlar –
alimciyəz, tarixbazlar,
Öz kökündən çoxdan qopub
kökdən yazan oyunbazlar!
Xoşqeyrətli filanzadə!
nökər ruhlu haramzadə
səndən də pis!
daha qorxunc, daha xəbis!..
Nəyə gərək belə qardaş –
yaxınlığı yoxsa mənə?
Beləsindən milyon kərə doğma olmuş
Yerdən çıxan saxsı mənə!..

15.IX.1980

İÇİMDƏKİ DƏRD AĞACI

İçimdəki dərd ağacı,
Kökü taleyin qatında,
Başı arzu qanadında
İliyimdən sümüyümə,
Dırnağımdan saçımacan,
Ürəyimdən ovcumacan
Zərrə-zərrə, qətrə-qətrə
Məni tamam zəbt eləyən.
Gülüşümə kölgə salan,
Sevincimdən nəf diləyən.
Yarpaqları yad şilləsi,
Budaqları od qırmancı –
İçimdəki dərd ağacı.

İçimdəki dərd ağacı...
Barmağımda qabar olan
düyünüylə,
Sifətimdə qırış salan
köynəyiylə
Yazımda da, qışımda da
yaşıl libas geyməyilə
fəsillərə acıq verən
hər budağı pöhrələnən,
hər rişəsi saçaq verən,
Nəğməsi yad, sözü acı
İçimdəki dərd ağacı...
Ağac bir yol yarpaq açar,
Ağac bir yol bar yetirər,
Busa hər gün gül içində,
Busa hər gün bar altında.
Bir yarpağı saralmamış
Mini bitir qanadında.
Aman Allah,
nə qəribə ağacdı bu?
Əzabımdan şirə əmən,

Fəryadımdan küləklənən.
Mən qısılıb çəkildikcə
Ürəyimdə ürəklənən,
Dönük qardaş, soyuq bacı –
İçimdəki dərd ağacı!

İçimdəki dərd ağacı,
Ayağımı deşib keçən
köklərivlə
yad torpaqdan qüdrət əmən,
Yad ellərin havasına
Bulud-bulud pöhrələnən.
Məni məndən alıb gedən,
Mənə mənə yad eləyək.
Qucağında yuva qurmuş
Pərvaz qəmə həyat verən.
Həsrətləri, hicranları
Min qayğıyla yelpikləyən,
Saçlarıma ağ yağışı
Səpən bulud tutalğacı –
İçimdəki dərd ağacı.

İçimdəki dərd ağacı!..
Hara belə boy atırsan?
Ürəyimi çəkə-çəkə,
Gözümdən yaş tökə-tökə
Məni hər gün parçalayan,
Məni hər gün xırdalayan,
Şübhələri qızışdırıb
pislikləri qurdalayan,
Öz əlimlə düşmənimə
bəzədiyim şöhrət tacı.
Sevincimin nə zamansa
İldırımtək vuracağı
İçimdəki dərd ağacı...

9.XI.1980

SƏNƏ UCQAR SÖYLƏDİLƏR...

Ay ocağım!
Bu dünyada
hamıdan çox güvəndiyim,
hamıdan çox umacağım!
Sənə ucqar söylədilər:
Bilirsənmi neylədilər?
Yüz arzunun mürgüsünə qor çiləndi.
Bir namərdin xəncəritək
söz sinəmə pərçimləndi.
Sənin geniş ürəyindən xəbərsizlər,
O tayına, bu tayına çəpər çəkən
Bir yaranın göynəyindən xəbərsizlər,
İgidlərin çinar kimi boylarından,
Birliyinə həsrət qalmış
illərindən, aylarından,
Sinəndəki ulu döyüş izlərindən,
Məndən, ondan, özlərindən
xəbərsizlər
Sənə ucqar söylədilər...
Yada düşdü el yolları,
Xoca döngə,
Deman yolu –
Tarixlərin tutqun yolu, duman yolu.
Karvanların bol yolları,
Get-gəlişin sel yolları.
O yolların bir tilsimdə qırılmağı,
Gözlərimin
yaxın-yaxın uzaqlara
baxıb-baxıb yorulmağı.
Köçürülmüş kənd yerində
çinarların başdaşıtək ucalmağı.
Quzeyində güneyinə yol olmayan
sirəm-sirəm dağlarının
baş ağardıb qocalmağı...
O dağlara bircə dəfə qalxsaydılar,

Xəzərədək pillə-pillə enib gələn
oylaqlara baxsaydılar,
Cənub tayda laparlanmış
yaylaqlara baxsaydılar,
Gözümdəki ümidləri, gümanları.
Təbriz üstə vadilərdə
pul-pul olmuş
dumanları görsəydilər
Sənə ucqar deməzdilər!
Görərdilər:
zirvədəki vüqar kimi vüqar olmaz,
Bir ətəyi Xəzər olan, dəniz olan,
Bir ətəyi Təbriz olan ucqar olmaz!
Onlar deyir – sən ucqarsan,
Mən deyirəm – sən ucasan!
Güvəndiyim bir müqəddəs uca varsan!
O tayına, bu tayına baxa-baxa
ucalırsan, ucalırsan!..

Yardımlı, 1976

GƏRƏK BİZ BACARAQ

Gərək biz bacaraq qurban verməyi,
Bacaraq od tutub alışmağı da.
Məsləksiz dostları atıb cərgədən,
Onların yerinə çalışmağı da...
Ucalıq su dəymiş zəmilər kimi,
Hər gün qoy duzlansın göynək yaralar.
Ömür qızıl yüklü gəmilər kimi
Doğma sahillərə nə vaxt yan alar;
Birdən sahillər də yay tək gərilib
Bizi bir ox kimi dünyadan atsa,
Əgər o əl deyil, sınıq qanadsa, –
Yenə biz uçmağı gərək bacaraq.
Yuxunu köhnəlmiş bir çarşab kimi,

İstirahət üçün dolaşdığımız
Sahil yollarını çürük sap kimi
Ataq ömrümüzdən, ürəyimizdən,
Keçək duzumuzdan, çörəyimizdən,
Keçək əlimizin ipəkliyindən,
Keçək çəkməmizin düz dabanından,
Salaq namərdləri torpağın üstə,
Onlar şan-şan olsun
qəzəbimizin
Çəkic yumruğundan, biz dabanından,
Hər an hazır olaq qurban verməyə –
Qara saçımızı – dümağ həsrətə
Yaltaq barışığı kişi nifrətə
Sonra nədən keçək
Sonra cərrahtək
Kəsək ruhumuzu, düşüncəmizi
Orda yaxşıyla pis saçaq-saçaqdır.
Kəsib tullamasaq pisliyimizi,
Kim bizi rəhm edib sağaldacaqdır...
Gərək biz bacaraq
bir gün açaraq
Ömrü buludların yaxası kimi
Ordan paraşütlə tullanmağı da,
Ölümün yanına, sevgilimiztək,
Tələsə-tələsə yollanmağı da...

1968

BAŞINI AŞAĞI SAL, İŞİNİ GÖR

Bir yoldaşın tez-tez verdiyi "məsləhət"

Mən belə bir adam gördüm cavan yaşımda,
Mən belə bir qaya gördüm durub qarşımda,
Mən belə bir zülmət gördüm yollara enən,
Ürək yeyən bir ətalət qurdunu gördüm.

"Nə işin var" deyə-deyə bizi yatıran
Əlsiz qoyar, dilsiz qoyar yurdunu, gördüm...

Ey balaca bir obadan gələn yollarım,
Qədəmimə düzlük dərsi vermisən, şükür!
Üstündəki hər çiçəyi üzü günəşə,
Gözü gülər, başı uca görmüsən, şükür!..

Üfürülmüş bir şar kimi bir iynəyə bənd
Bu izzəti, bu hörməti ayaqlayaram.
Kişiləri qapılarda sümsük eləyən
Pay verilən o şöhrəti ayaqlayaram.

Xətt çəkərəm bu kiflənmiş əxlaq dərsinə,
"Ağıllıdır, utancaqdır – başı aşağı!"
Böyüklərin dəbdə olan bu tərifindən
Başımıza bir qorxunun daşları yağır...

Kölə qorxu, aciz qorxu mənə deyir ki,
Başım qalxsa, həqiqətə baxa bilərəm.
Fil bildiyim qarışqanın xırdalığını
Çaşıb birdən öz başına qaxa bilərəm!

Gərək deyil mənə belə dost məsləhəti,
Əzabından dərs almışam utancaqlığın.
Öz sözünü vahiməylə qısıb saxlayan
Ürəklərin infarktına diqqətlə baxın!..

Tariximin hər vərəqi mənə bir ibrət:
Başaşağı geri döndük Araz üstündən.
Başıaşağı bir heykəl yon Culfa yolunda,
Ümidimi kəfən kimi, cır, as üstündən...

Babaların bir "barışda" susmuşdu, qardaş,
Sonra onlar buna görə söyülən oldu.
Qılınc ilə vurulmasa əyilməyən baş
Tərif üçün hər hüzurda əyilən oldu...

Mən yurdumda qonaq kimi gəzdiyim zaman
Nobellərin banklarına axıb dolmuşam.
Öz-özümü gözdən salıb unutduğumdan
Özgəsinin yanında da unudulmuşam.

Başaşağı – bir ayrılıq sərhəddi artar,
Başaşağı – qanadlanıb uça bilmərik!
Öz əlimlə öz qapıma vurduğum açar
Tilsimlənər, baş çıxarıb aça bilmərik!..

22.VIII.1979

M.Ə. SABİRİN MƏZARI ÜSTÜNDƏ

İlk dəfə gəlmişəm məzarın üstə,
Dağıtdım nigaran bir həsrətimi.
Dilim dinc durmadı, bağışla, ustad,
Sənինlə danışmaq cəsarətimi.

Son gedəndən bəri çox sular axıb,
Ömrümüz bir kökdə dayanmayıbdır.
O vaxt yatanların ayılıb çoxu,
Neçəsi hələ də oyanmayıbdır.

Burda sınır vüqar, qırılır qürur –
Öyrənə bilmədik səndən yanmağı,
Eh, odsuz adamlar qəlbə od vurur,
Mürgülü gözlər də bizə göz dağı...

Durna uça-uça yatır deyirlər,
Var əl vura-vura yatanlarımız.
Kişilik adını hələ nə qədər
Namərdlik möhrüylə satanlarımız...

Sallanıb vəzifə budaqlarından
Yatırlar, kor olmuş yarasadırlar.

Qeyrətli söz çıxmaz dodaqlarından –
Söz düşsə arvaddan Araza qədər.

Yatırlar gündüzün boş işığında,
Doğruyla yalanın, düzlə əyrinin,
Arzuyla taleyin barışığında...

Çoxunun dəyişib nimdaş libası,
Köhnə ürəyisə dəyişməyibdir.
Baxırsan, elə bil, igid babası
Bunun taleyiyçün döyüşməyibdir.

Onlar nə dil qanır, nə hörmət qanır,
İnamları varsa – dövlətdir, vardır.
Babamın qılıncla qazandığını
Onlar bir busəyə uduzanlardır.

Atalar sözünün yalanı olmur;
"Kor olar el üçün ağlayan gözlər".
Deyirəm, bəs niyə oda tutulmur,
Gündə yüz ürəyi dağlayan gözlər...

Yeyib qudurdular "zülmətsevərlər",
Xalq malı bunların arpası kimi.
Vətənin çiynindən asılıb onlar,
Köhnəlmiş dilənçi torbası kimi...

BARIŞIQ

Sevinc atlı, biz piyada –
Yüzillərlə yüyürmüşük arxasınca.
Gah yalvarıb "gəl" demişik,
Deyinmişik gah da onun qarasınca.
Günümüzün çoxu zülmət, azı işıq...
Payımıza nə düşübsə barışmışıq!

Barışmışıq Türkmənçayda, Çaldıranda,
Tale bizi endirəndə, qaldıranda!
Min nemətli süfrəmizdən
bircə qismət çatmayanda özümüzə,
Öz qanımız bağlananda üzümüzə.
Əsəblərim "Dilqəm"di Araz boyu,
Əsəblərim el qəmidi Araz boyu...
Dumanlanmış gözləriylə
yenə baxır Qarayazı.
Barışmışıq –
alnımıza yazılanda qara yazı...
İran boyda viranədə
bir əsrdə üç inqilab! –
Sonu yenə barışıqdı.
Babək öz Bəzz qalasında,
Dönməz, ölməz qalasında
İyirmi il gətirdi tab –
Sonu yenə barışıqdı...
Barışıqlar kitabını
açıb baxın varaq-varaq,
Qol qoymuşam
barmağını öz qanıma batıraraq!..
Barışmışıq –
bir millətin əlifbası iki olub!
Mənzil mənim, yol də mənim,
Çəkdiyimsə özgələrin yükü olub.
Öz içimdə çilik-çilik doğranmışam,
barışıblar özgələri.
Var-dövlətim barışığa qurban gedib,
Mənə qalıb öz kədərim...
Gülsüz qalıb bir gülüstan.
Barışmışıq –
bölünmüşük ostan-ostan,[1]
Zəmi-zəmi, bostan-bostan!
Bir az Şərqdən, bir az Qərbdən,

[1] Ostan – mahal.

Yüz imandan, yüz məzhəbdən
Gündə bir şey qapa-qapa,
özümüzü itiririk
özgələri tapa-tapa!
Aldanmaram yenə həyat vədlərinə.
Sayca məndən az olanın
İrandakı muxtariyyət vədlərinə.
Qoy yol versin mənə zaman,
Öz dərdimi
özüm deyim öz adımdan!
Qoy deyim ki, mən millətəm,
rahathulqum sanma məni!
Farsdandönmə deyə-deyə
danma məni!
Demə: mənim BMT-də öz səsim yox!
Daha mənim bu yoxluqla
barışmağa həvəsim yox!
Rüşvət ilə, hiylə ilə
gəlib mənə ağa olan
kölə ilə
Barışmağa həvəsim yox!
Gözlərimdə
37 – fəlakəti,
46-nın müsibəti.
O eynəkli, o eynəksiz,
o vətənsiz, o məsləksiz
"kişilərin" cinayəti...
Daha bir də barışmaram
qorxu ilə.
Bu qardaşı o qardaşdan,
ayrı salan duyğu ilə!
Mən görürəm ta susmağa,
ta yatmağa haqqım yoxdu!
Özüm tarix meydanında enə-enə
Özgələri ucaltmağa haqqım yoxdu!
Haqqı yoxdur!

1980

EVƏ QAYIDARAM

Evə qayıdaram qaş qaralanda,
Dağlardan ahəstə yelə əsən zaman.
Gələn qaranlıqdan qorxuya düşən
Yollar obalara tələsən zaman.

Dönərəm dünyanın həzin çağında,
Ürəyi səssizcə bürüyəndə qəm.
Beşiklər başında çıraqlar kimi
Laylalar alışıb yanır, görərəm.

Gələrəm övladlar getdiyi yolla –
Xəbərlər axışıb gələndə kəndə.
Ana intizarı, ata gileyi
Tanrının özünü dara çəkəndə.

Qocalar yenə də üzü göylərə,
Ürəyi işıqlı, dili dualı.
Sinəmdən daş kimi asılıb gələr
Burdan apardığım o ilk sualım.

Allah, o itə bax, necə vəfalı!
İyimi uzaqdan gör necə bilmiş.
O da bu ev kimi qocalıb yaman,
Onun da başından dostlar seyrəlmiş...

Uzanır bacının evindən gələn
O yol ki üstündə bir ürək əsir.
Ona ki bir xəbər verən olmamış
Bəs hardan duyubdu, hara tələsir?

Elə bir illərlə heç azalmamış
Həyətdən qovrulmuş soğanın iyi,
Ocaq dediyimiz bir möcüzənin
Bahar təravəti, qəlb istiliyi.

Kəhər şahə qalxar arzularımtək,
Quzular həyətin yaraşığıdı.
Sərnicə sağılan süd deyil sanki,
Ana zümzüməsi, – ay işığıdı!

Hikmət qaynağıdı ana ocağı –
Çağlayıb ruhumu dindirəcəkdir.
Məni susuz qoyub dərin dəryalar,
Bu bulaq yanğımı söndürəcəkdir.

Evə qayıdaram qaş qaralanda,
Dağlardan ahəstə yel əsən zaman,
Ömür yollarının yorğunu olan
Ürək dincəlməyə tələsən zaman...

Moskva-Bakı
25.X.1979

BOŞ QALMIŞ YUVALARA DƏYMƏYİN

Dəyməyin bu boş qalmış
yuvalara, dəyməyin...
Balaları uçub gedib,
Kim bilir qayıda, ya qayıtmaya.
Bala xatirəsinə necə qıyırsınız,
Bala xatirəsini oyatmayın...

Dəyməyin bu boş qalmış
yuvalara, dəyməyin,
Uzaq, qürbət ellərdə
Sümükləri sızlar quşların.
Ləkələrin biz-biz durar,
bir çöp düşsə yuvalarından.
Gedib çatar onlara
dağılmış yurdların fəryadı.

Yuvanın nə günahı?
Asılıb öz yerindən
Nə gələnə söz deyir,
nə gedənə daş atır...

Dəyməyin bu boş qalmış
yuvalara, dəyməyin...
Nəğmələri pərvazlanardı bir vaxt
qanad-qanad.
Sarı dimdikləri uzanardı günəşə.
Yellənərdi yarpaq yelpikləri
tel-tel, ilmə-ilmə.
Belə yuvadan biri
uzaq kənddə sızlayan
öz evimiz deyilmi?

Dəyməyin, bu boş qalmış
yuvalara, dəyməyin,
Yarpağı tökülüb yan-yörəsindən,
Fikri köçən quşlarla
uçub gedib uzağa.
Kimsəsizin üstünə
şimşək gülər, qar yağar...
Dəyməyin, bu kimsəsiz
yuvalara, dəyməyin...
Xəzan yatır balaların yerində,
şaxta da yatacaq, külək də...
Arsız, qara qarğalar
durnanın boş evinə
sevinib güləcək də...
Çılpaqlaşmış ağaclar
utanacaq açılanda gizlənci.
Yuvanı yelə vermək istəyəcək
gecə-gündüz, gizlicə.
Ancaq olmaz dağıtmaq
onu
daş atılmasa,

Ağacların kökündə
ocaqlar çatılmasa...
Dəyməyin bu kimsəsiz
yuvalara, dəyməyin!
Payız əbədi deyil,
gəlib keçəcək qış da.
Bir gün köçəri quşlar
gələcəklər dalınca
o köhnə yuvaların
Xırda qış ürəyini
tərk etməyən ilqarın.
Uçacaqlar çox taxta
evciklərin yanından,
Gəzəcəklər köhnəlmiş
çör-çöp yuvalarını,
Öz quş babalarının
başladığı mahnını
davam etdirmək üçün
başa yetirmək üçün...
Sındırılası yumurtası,
boğazlanası balası yox,
Əlinizdən neyləsin
səsi yox, naləsi yox.
Öyməyin özünüzü,
gücünüzü öyməyin.
Dəyməyin, bu sahibsiz
yuvalara dəyməyin!..

Peredelkino, 20.X.1979

MƏKTƏB ZƏNGİ

Çatır qulağıma illərdən bəri
O kənd məktəbinin doğma zəng səsi.
Çatır uşaqlığım xatirələri,
Görüş çağırışı, vida nəğməsi.

O nəydi? Sığalı torpaqdan alan
Sınıq bir kotanın polad tiyəsi.
Uşaq duyğumuzu təşvişə salan
Arzudan göyərən səs fəvvarəsi!

Qonşu obaların uşaqlarını
Dərsə gecikəndə yolda haqlardı.
İlk zəngə çatmasa qaralar qanı,
Çəpərlər dibində kimsə ağlardı.

Çatır qulağıma hayana getsəm,
Kotan parçasından ucalan o səs.
Xoş gündə sevincdi, ağır gündə qəm,
Qəlbimdən heç zaman çəkilib getməz.

Ötər sürətini təyyarələrin.
Batırar səsini qatarların da.
Kəndin diləyidi – aşar illəri,
Hayana getsəm də haraya çatar.

Özgə torpaqların cazibəsində
Gözüm aldananda, ağlım çaşanda,
Demirəm bir həftə, bir saat, bir dəm
Fikrim o ocaqdan uzaqlaşanda,

Gənclik ehtirası, şöhrət tələsi,
Yalançı tamahın şirin vədəsi...
Bircə təmizlikdir mayadan gələn
Onun da hiyləyə kölgələnməsi...
Ağlım kütləşəndə, gözüm yatanda –
O səs – ürəyimin silkələnməsi!..

Ah körpə dostlarım, qönçə dostlarım!
Bizim alnımız da qırışıb indi.
O məktəb zənginə hicran qubarı,
Sizin səsiniz də qarışıb indi.

O nəydi? Cilası torpaqdan gələn
Köhnə bir kotanın polad tiyəsi.
Ömrü gələcəyə qanadlandıran,
Keçmişə tökülən səs fəvvarəsi...

25.III.1980

MƏKTƏB YOLLARI

Güllərə, kollara dolaşan izim
Çəkərdi dalınca düşüncələri.
Məktəbə gedərdim bazar ertəsi,
Qayıdıb gələrdim şənbə günləri...

Tək-tənha...
Yollarıq sirri tükənməz,
Özüm də balaca bir sirr kimiydim.
Mən arzu adlanan, geriyə dönməz,
Bir selin əlində əsir kimiydim.

Çöllərə qəlbimin səsini yazdım,
Dörd il yollar oldu gözümə qənim,
Mən torpaq üstündə addımlamazdım,
Torpaq ürəyimdə gedərdi mənim.

Adladım meşələr vahiməsindən,
Qorxu da mənimlə yoldaş kimiydi.
O dağ çaylarının sel hədəsindən
Bir uşaq ümidi keçirməliydim.

Evlərdən boylanan işıqlar – harın,
Yolumda qaranlıq hədəsi vardı.
Gecəyə düşəndə qəbristanların
Daşları dalımca addımlayardı.

Duman məchulluğu, çən sonsuzluğu,
Yoxuş tənlikləri, qar kəsirləri.

Buluddan, günəşdən, ulduzdan yağıb
Yollara yazılan ilk əsərlərim...

Həftələr üstündən, illər içindən,
Fikirli, qayğılı ötən baharım.
Körpə ürəyimi sınağa çəkən
Sonu görünməyən məktəb yolları...

Sevincə can atıb, qəmdən adlayıb
Gəlsə də, ya yaxşı, ya pis sorağım.
Ölkələr dolaşsam, qitələr keçsəm
Arzular uzunu, ümidlər boyu
O məktəb yoludur addımladığım!..

27.X.1982

AT HAQQINDA İKİ ƏFSANƏ

1. KƏHƏR AT VƏ SƏADƏT

Ala-toran örüşlərə çıxıb birinci
Kəhər atın yalmanına sarılan zaman.
Dan yerinin şəfəqitək yanan sevincim
Boylanardı arzuların uzaqlığından.

Torağaylar asılardı başımın üstə,
Qıy vurardım səslərini batırmaq üçün.
Qoruqların xam yerini arayıb tezdən
Tələsərdim atımızı otarmaq üçün.

Mərz üstündə döşünədək islanıb şehdən
Xırpıltıyla tər otları biçən kəhərin.
Oyur-oyur oyuldayan gözlərində mən
Şəfəqin seyr edirdim doğan səhərin.

Sübhün mehi, xışıldaşan qaraağaclar,
Bülbüllərin harayında susan biçənək.

Uzaq-uzaq xəyallardan min söhbət açar,
Oxşayardı ürəyimi gündoğanadək.

Sonra uşaq səslərindən oyanan çöllər
Damlaların güzgüsünlə bərq vuran zaman.
Şehli otdan dodağını çəkərdi kəhər,
Qılınc kimi sıyrılardı öz iştahından.

O duyardı, arzuların minib tərkinə
Bu səhərdən, bu çöllərdən qopmuşam haçan.
Götürülüb üz tutardı yolun bərkinə,
Yaş cilovu əllərimdən qoparanacan.

Qoruqları, zəmiləri o ələk-vələk
Eləyərdi,
Kişnərtisi düşərdi kəndə.
Yalvarardım, dayanardı yumşalanadək,
Ancaq yenə şığıyardı mən yetişəndə.

Gözlərində dəlisoyluq şimşəyi çaxar.
Qəzəbimdən qışqırardım, ağlım çaşardı.
Yorulardım – lap yaxında dayanıb baxar,
Əl atardım – şahə qalxıb uzaqlaşardı.

Düşünərdim: daha ona yetişməz əlim,
Mürgü kimi gözlərimə dolardı kədər,
Oyananda görərdim ki, qayıdıb gəlib
Səs-səmirsiz başım üstə dayanıb kəhər.

Bu günahkar baxışlara yumuşalmazdım,
Acığımı yollar boyu çıxaydım gərək.
Cilovunu özü mənə verdiyi azdı,
Mən də onu dağa-daşa sıxaydım gərək.

Belə idi uşaqlığın bahar oyunu,
Səhərlərə at belində tələsərdim mən.
Nə bezikib, boş axurda saxlardım onu,
Nə də kəhər əl çəkərdi xasiyyətindən.

...Ey səadət! Bəlkə elə o kəhər atsan!
Çox qaçmışam, yalvarmışam düşüb
dalınca.
Demişəm ki, cilovuna əllərim çatsa
Dincəlmərəm qisasımı səndən alınca!

Məni gənclik illərində ürəyi sınıq
Mələtmisən qəm üstündə lap zilinəcən.
Alacağam o illərin intiqamını,
Çapacağam səni arzu mənzilinəcən!..

13.X.1980

2. TALE QİSMƏTİ

Atam satdı o kəhəri uzaq bir elə,
Apardılar niyə onu saxlayammadım?
Gözlərimdən yumalandı yaş gilə-gilə
Kəhər baxdı,
məğrur idi, ağlayammadı...

Hiss edəndə yəhərində bir özgəsini,
O duruxdu, xəbərsizdi sövdələşmədən.
Yenə dəcəl gözləriylə süzürdü məni,
Cilovunu buraxmıram, anlamır, nədən...

Çapıb getdi. Təzə aytək yanan nalları
Axşamacan uzaq yollar oyadacaqdı.
Çapıb getdi, geriyə də baxmadı barı.
Elə bildi, səfərdədir...
qayıdacaqdır.

Günlər ötdü, qaralmışdı atamın qanı,
Kəhər bizim əlimizdən uçan quş idi.
Məhəbbəti qəribəymiş dilsiz heyvanın,
Qulağımda bir kişnərti yeri boş idi.

Günlər ötdü, güneyləri bürüdü bahar,
Kəhər mənim yurd yerimdə qaralan ocaq.
Yəqin ona təzə yerdə xoş baxacaqlar,
Haranlığı sahibini unutduracaq.

Bir gün leysan nə başladı...
Doğrayıb, kəsib
Şimşək göyü şırımlayır, düşmür həvəsdən.
Sübhə yaxın elə bil ki, silkələndi ev
İldırımın səsindən də gur olan səsdən.

Birdə anda uşaqlarla doldu yaş eyvan,
Qoy islanaq, bu dünyanın xoşbəxti bizik.
...İldırımın işığında alışıb-yanan
Bu selləri içib gələn kəhərimizdi!

O döyürdü ayağını həyətdə yerə,
Şimşək altda şəfəq saçır, qalxır, qabarır...
Yaş üzünü toxundurur mənə yüz kərə,
Yəqin məndən gözləmirmiş bu etibarı!

Kişnərtisi axıb gedir od sinəsindən,
Qızıl kəhər par-par yanan qızıl ürəkdi.
O leysanlı, selli-sulu yaz gecəsində
Üç mənzili keçən atım vəfada təkdi!

Üç gün sonra sahibiylə çıxıb gedirdi,
O qisməti tapa bilmək bir də çətindir.
Kəhər dinsə deyərdi ki, "nahaq itirdin,
Tarixləri aşıb gəlmiş səadətindim!"

At cildində, quş cildində, ağac cildində
İnanıram, hərəmizin bir sehrimiz var.
Əgər tale qismətimsə, qoymayın itə,
Demək olmaz, min il sonra gərəyim olar!..

QOCALAR PAYIZDA TAXIL ƏKƏRDİ

Qocalar şum üçün qayğı çəkərdi –
Hələ əllərindən düşməmiş oraq.
Qocalar payızda taxıl əkərdi –
Yorğun öküzləri haraylayaraq.

Əlləri günəşə döndüyü andan
Sarı şəfəqləri səpərdi yerə,
Səpərdi səhərdən günbatanacan
Körpə ümidləri səssiz çöllərə.

Bir qarı gələrdi evinə çağında
Əyilə-əyilə, əlində səbət
Utancaq kəlmələr –
Gül dodağından
Ürəyə süzülən xeyir-bərəkət...

Səbətlər dolusu payız armudu...
Elə qocalar da payızdı, düzü.
Xəlvət işardardı küllənən odu
Dərin qırışlardan ötən təbəssüm.

Kimin eşqndəydi o armud payı,
Hansı bir ilqarın son nidasıydı?
Hansı xəzanlıqda ləpir arayıb,
Hansı çarəsizi ovudasıydı?

İndi o süfrənin ləzzəti harda?
O ki halallığın şirin barıymış...
Mənə elə gəlir o qocalar da
Ayrı planetin adamlarıymış!..

Nurlu baxışların hikməti dərin
Hər kəlmə körpüydü uzaq ellərə.
Süfrəyə uzanan iri əllərin
Sanki ağırlığı düşürdü yerə...

Onlar verərdilər çöldə baş-başa,
Torpaq da qocaydı, əllər də qoca.
Saz ilə, söz ilə xeyrə uğraşan
Ürəyi təpərli ellər də qoca.

Mənim o əkinçi allahlarımla
Dayana bilsəydim bir də üz-üzə,
Deyərdim: o sarı ümmandan damla, –
Torpaqdan göyərən xatirənizəm...

14.IX.1980

BİÇİN NƏĞMƏSİ

Biçin başlanmamış əllərində çin,
Zəminin ağzında vərə düzülən.
Ömrünü əridib neçə nəsilçin,
Ancaq indi-indi şərə düzülən
Kişilər önündə borcum var mənim.
Sözlə qaytarılmaz, alqışlar yetməz.
Səsim səslərinə bənzəsə belə,
Qışqırsam səsimi onlar eşitməz.

O günün altında başları üstə
Alışan çinləri – Misri qılınclar.
Ən xoşbəxt haləyə çevrilir üzdə
Onların başında ən baha taclar,
Körpə ömrümüzə işıq çiləyən
O çinlər – ən təmiz bir ayna idi.
Zəmi ətəyində biçin nəğməsi
Dünyanın ən qədim ayini idi.

Zirvələr bu səsə qalxardı onda
Buğdalar sünbüldən pırtlaşardılar.
Kişi səsindəki bu zəhmi görüb,
Bu bolluğu görüb, bu rəhmi görüb,
Yollar dənə-dənə adam bağlayar,

Yollar ilxı-ilxı at pardaxlayar,
Dağlar oba-oba yurdlaşardılar.

Orda dərz dibində, taya dibində,
Ağac kölgəsində, qaya dibində.
İpək nənələrin ağ tellərində,
Şəkər dillərində, bal dillərində
Yüz ilin, min ilin havası vardı,
Ağrı irilənmiş batıq gözlərdən
Buğda sarısıtək, un işığıtək
Bizim üstümüzə xeyir yağardı.

O əyri oraqlar – bükük qarılar,
Dağlar yamacında qulağımıza
Ən qədim nəğmələr oxuyardılar.
O əyri qarılar, o düz nənələr
Daraq tanımayan başımız üstə
Sünbül daraqları toxuyardılar.

Zəmidən qıjıltı səsi gələrdi,
Zəmi yox, o daha bir qoşun yolu...
Sanki bir güneyi qamarlayardı
Bizim kişilərin əkin-biçində
Uzanan üç arşın, beş arşın qolu.
Qolçalar sürüşkən, ilanboğazı,
Dəri döşlüklərin sığalı haqdan,
Əyilməz kişilər! Nə xoşbəxtsiniz
Diziniz qabardı dərz bağlamaqdan.

Saxlayın dünyanın hay-harayını
Gərək muzeylərdə bir çin tapılsa...
O maşın girməyən dağ zəmisini
Mənimlə bir yerdə biçən tapılsa...
O qara qılçığın, sarı buğdanın
İşıq şırnağından doğacaq danım.
...Tələsin, tələsin öyrədim sizə, –
Sonra tapmazsınız yer üzərində
Biçin mahnısını xatırlayanı.

ATAMIN ƏLLƏRİ

Atamın əlini canlı heykəltək
Ömür körpüsündən keçirmək ola.
Atamın əlini özünə bənzər
Bir daşa, qayaya köçürmək ola.

Qırışlar üst-üstə qalaqlanan il,
Qayğıdır, ağrıdır, dərdin izidir.
Əllər bir nəfərin, bir nəslin deyil,
Bir dövrün təzadlar xəritəsidir.

Birində qəlpələr qırımlar açıb,
Mərmini əliylə haqlayıb atam.
Biri şum yeridi, bərəkət saçır,
Bizi bərəkətli saxlayıb atam.

Birisi yaradan sızlayır hələ,
Birində torpağın ağrısı, dərdi.
Qəlpə dəyməsəydi iki əl ilə
Atam bir kəndi də yedizdirərdi...

Ürəyi qoruyub bu əl qalxanı,
Sınıq qanadla da uça bilibdir.
Qəlpə kilidləyən barmaqlarını
Zəhmət açarıyla aça bilibdir.

İki əl – baş üstə yanaşı bayraq,
Birində qan izi, birisində tər...
Dava görməsən də bu əllərə bax,
Dava istəyənə onları göstər...

Əllərdə gül əksən, biri al bitər,
Birinin gözünə sübh şehi dolmuş.
Atamın bir əli cəbhədə əsgər,
Biri Yardımlıda əkinçi olmuş!..

BİRİNCİ – SONUNCU

Atam ucaboylu bir cavan idi,
Bu saçıqırovlu yaşımdan cavan.
Gülüşü dumanı göydə əridir,
Yollar tük tökürdü addımlarından.

Bir kimsə qolunu bükə bilməmiş,
Mərdliklə tapmışdı dünya varını.
Biçində önünə keçən tapılsa,
Dəryazla qırardı dabanlarını.

Ehtiyac kölgədi neçə bahar, qış
Torpaqdan güc alıb ürəklənirdi.
Dostların xırmanı həşəm olmamış
Onun buğda tığı kürəklənirdi.

Toylar çoxalırdı payıza sarı,
Çalğıdan qaçardı obanın dərdi.
Cıdırda bağrını dəlib yolların
Kəhərin belində öndə gələrdi.

Yeri öndə idi hər işdə, hər an,
Yeri öndə idi xeyirdə, şərdə.
Ancaq zəhmətinə pay düşən zaman
Onu səslərdilər dal cərgələrdən...

O uzaq illərin üzü daim ağ,
O uzaq illərin sədası təmiz.
Yeməyə tox baxıb, işə ac baxmaq
Olmuşdu birinci əxlaq dərsiniz.

Balta qandalları vurdu əlimə,
Üzümə çöllərdə açdı danımı.
Mən verdim öz torpaq müəlliməmə
Zəhmətdən birinci imtahanımı.

Sevin ki, atalar heykəli təki,
Ey ürək, nişana qalanlardanam.
Mən elin əlindən qılıncı ilkin,
Çələngi sonuncu alanlardanam...

1.II.1982

ANALAR AĞLAMASIN

Təkcə analar ağlamasın,
Analar ağlayanda dözə bilmirəm.
Sahilsiz ümmandı ana kədəri,
Onu sonra kimi üzə bilmirəm.

Təkcə analar ağlamasın,
Dünya yetimləşər, ana ağlasa.
Ananın gözünə qəm çiləyənlər
Anamı gözünün üstə saxlasın.

Çəkərəm ananın kədər payını,
İçərəm ananın zəhər payını.
Təkcə analar ağlamasın.

Qoy ağ çiçəkləri düzüm saçına,
Qarışsın saçının ağı güllərə.
Ana gözlərində bulud görməyim,
Qəmi yaza dönsün, ahı güllərə.

Təkcə analar ağlamasın,
Zirvəmdi, qoymayın onu çən alsın.
Al-qumaş geysə də ona yaraşmaz,
Ananın paltarı sevincdən olsun.
Təkcə analar ağlamasın,
Ana kədərinə dözə bilmirəm...

1978

ÜÇ ADDIM YER AYIR..

Üç addım ayır, kənd qəbristanı,
Günlərin birində qayıdacağam.
Harayım yetməyən neçə insanı
Cansız sükutumla oyadacağam...

Bu ruh söhbəti də xəfif bir güman,
Səhra boşluğunda ilğımlanan yaz.
Çiynimizə düşən bu haqqı-saydan
Çıxmağa təsəlli olmasa olmaz!

Üç addım torpağın – sonuncu qismət,
Sonuncu düşərgə, sonuncu duyğu...
Bu kənd öz yerində qalacaq, əlbət,
Bu kənd qalacaqsa, daha nə qorxum?!

Qüruba tökülən kədərli yellər
Dünyaya qayıdan səsimdi ki var.
Üstümdə bu yurdun daşısa əgər,
Mənim ölümə də gülməyim tutar!

Ala yaylaqlarım alaçıqlısa,
İlxılar ötürsə el yollarından,
Bu dağlar durduqca ayrılıq susar,
Doğaram yaz şəhi, zirvə qarından...

Çəmən o çəməndə, çaylar o çaysa,
Meşələr nağılla dolusa hələ –
Öz ana dilimdə haraylanarsam,
İnan, məzardan da qalxıb gələrəm!

Qoy kənd uşaqları versin səs-səsə,
Bu doğma harayda həmişə sağam.
Analar adıma bir layla desə,
Soyuq torpaqda da uyuyacağam!

Dinər "Qaragilə"! Ağlama, bəsdi,
Zaman bu mahnının çəpəri olmaz.
Mən nə vaxt başladım,
mən haçan susdum –
Qardaşım dünyanın xəbəri olmaz...

Yenə toy-bayramlar qıracaq bəndi,
Bir qədim sevgidən alışacaq səs.
Obalar yaddaşı tarixdən qədim,
Oba yaddaşına yol tapan ölməz!

Hikmət ocağıdır ulu dağ-dərə,
Gələrəm, qoy bir də onu dinləyim.
Bu qədər ağsaqqal uyuyan yerə
Dünyanın ən müdrik torpağı deyim.

Meşəndə bir ağac qırılıb düşdü,
Pöhrələr boy atır, boy atır arzun.
Mayam o torpaqdan götürülmüşdü,
Gələrəm, torpağa borcum qalmasın!..

BİR ŞAM YANDIRARSAN

Ey bayram axşamı yalqız qalan kəs,
Bir şam yandırarsan adıma mənim.
Bizim bu həsrətin yanğısı sönməz,
Tonqallar alışar oduma mənim...

Bayram xonçasında şamlar yan-yana,
Onların içində mən də yanaram.
Gündüz bir dost kimi yada salana
Axşam alov kimi xatırlanaram.

Bayram niyyətində sevgini sına –
Gecə gələrəmsə yuxuna – sağam.
Nəfəsim dəyməmiş yanaqlarına
Şamın şöləsitək toxunacağam.

Bu uzaq ellərdə sənədir üzüm,
Qalsam da dörd divar arasında tək...
Bayram süfrəsitək açıqdı köksüm,
Bircə şam alışır üstündə – ürək!..

Moskva, 20.III.1979

DALIMCA AĞLAMA

Yolumu kəsəndə buludlar
Dalımca ağlama –
Buludlar ağlayır onsuz da.
Töküləndə yağış, ələnəndə qar,
Dalımca ağlama –
Yağış, qar ağlayır onsuz da...
Boylanıb pəncərə şüşələrindən
Dalımca ağlama –
Şüşələr ağlayır onsuz da.
Keçəndə payız meşələrindən
Dalımca ağlama –
Meşələr ağlayır onsuz da!

Dalımca ağlama –
Belə gec görüşüb tez ayrılanda.
Dalımca ağlama –
Ürək ayrılmırsa biz ayrılanda!..

Leninqrad, 8.X.1979

GƏLSƏYDİ

Məni sevən kəsi sevə bilmədim,
Sirli arzuların uçdum əlində.
O qız donub qaldı tək qaya kimi
Gənclik illərinin sahillərində...

Bu mənim səhvimmi, yanılmağımmı?
Soruşma, tərəddüd bəs nədən oldu?
Şəhərə atdığım birinci addım
Sevgidən qaçdığım ilk qədəm oldu.

Ürəyim geriyə dönməkmi istər?
Çaşıb "hə" desəm də düz deyil axı!
Ancaş qayıdanda görüş yerləri
Dost kimi yüyürüb qarışma çıxır.

Hardansa qulağa çatır bir səda:
Utana-utana "qayıt" deyir hey.
Addım ki, atıram ayağım altda
Gileyli baxışlar inildəyir hey.

Mən onun qədrini bilmədim, əfsus,
İndi sevdiyimsə bir parça qardı.
İlləri adlayıb gəlsəydi o qız,
Bu qızın başına ağıl qoyardı!..

KRIM MAHNILARINDAN

I. YETİM ADLAR

Göylərə sancılan minarələrdən
Gecələr qapqara bayraqlar kimi
asılır ruhların səssiz fəryadı.
Bu lal harayların intiqamından
xəbərsiz şəhərlər, qorxusuz kəndlər
Bu yadlıq içində qıvrılıb yatır...

Qıvrılıb
qovrulur öz axarında
dağların qəzəbli Uçansuları.
Qayalar köksünü verib qaytarır
Dəniz taleyindən qaçan suları.

Uçuq Qızqalası xəlvətə salıb
Sudağ qalasından atılmaq istər.
Yaş tökər daşları boş qalaların –
Əriyib bu dərddən qurtulmaq istər...

Adına qısılıb dincələr bir az
Burda Qaradağlar, Soyuqbulaqlar,
Burda Göytəpələr, Bağçasaraylar,[1]...
Kimsəsiz məzarlar üzü göylərə
Çöllərdən bir dəstə çiçək haraylar...

Mənə tanış kimi baxdı bu bulaq,
Hələ göz yaşları sellənəcəkdir.
Ağaclar boynumu qucaqlayacaq –
Qəlbi yarpaq-yarpaq tellənəcəkdir.

Saralmış otların ətrindən huşsuz
Mənəm,
ulduzların altında yatan.
Torpaq da üzünü sürtür üzümə,
Məst olub uyuyur bu doğmalıqdan!

Başımın üstündə ağlar buludlar,
Başımın üstündə səssiz fəryadlar...
Gecələr yuxuma girib dəstəylə
Köməyə çağırır bu yetim adlar.

Mən hansı qayaya sıxım köksümü,
Mən hansı işığı yandıracağam?!
Darağdaş[1] altında bir cır armudun
Titrək barmağında sarı yarpağam...

Ya qara bayrağam elə özüm də,
O boş minarədən asılıb qalan,
Ruhlartək,
qəmini duyan olmayan,
Nə soruşa bilən, nə cavab alan...

Krım, Göytəpə, 10.X.1980

[1] Krımda yer adları

Bu qürub çağında mənə toxunma,
Qayıt get,
Getdiyin yollar tanışdı.
Qayıt get, qoy görüm saralmış otlar,
Qurumuş çiçəklər nədən danışır.

Bir də bu ümidə umsunma tamam,
Get, ayrı əllərdən nəvaziş ara.
Bu torpaq üstündə sənə sarılsam,
Torpaq da od tutub məni yandırar...

Baş vursam köksünün cüt dalğasına,
Dalğalı dənizə mən yad olaram.
İsti nəfəsinə uyuyaramsa,
İsti ocağımda unudularam!

Üstümdən bu axşam küləyi əsə,
Yalan pıçıltılar olmasa, nə qəm.
Üzümü üzünə söykəməkdənsə,
Bu qara daşlara sürtmək istərəm.

Doğmadı meşədən dalğalanan səs,
Quşlar da bir tanış havayla dinir.
Sənintək yüz gözəl danışa bilməz
Bir tənha cığırın qəm tarixini...

Köksümə sıxılıb bir mamırlı daş,
Üzümə saçıntək toxunur duman.
Dağ çayı dinirsə, sən dinmə, yavaş,
Yüz sirrə yol açır danışığından.

Günün batan çağı bir ağlar neyəm,
Özümü özümə göstəribdi gün.
Torpaqdan bozarmaq öyrənməliyəm,
Sinəmdə yad güllər bitirməməkçün...

Göytəpə, 18.X.1980

Ana dilim! Səni allahların, göylərdən gələn kişilərin, işıqdan doğulan adamların müqəddəs dili, alpların-ərənlərin qəhrəman dili, bayrağının işığına dünyanı toplayanların fateh dili, nəhayət ölkələr dolaşan mühacirlərin didərgin dili adlandırırlar! Əmr etmək, hökm vermək üçün yaradılmış hakimiyyət; ordu, yürüş dili deyiblər sənə! Şaman dualarında təbiətin, yerin-göyün səsisən! Qayaların üstündə qaya kimi sərt bir millətin andısan. Dədə Qorqud boylarında dağlarımızın gül-çiçək dənizi kimi min rənglisən! Nəsiminin harayında üsyansan, ildırımsan! Füzulinin pıçıltısında dünyanın ən böyük qəm yüküsən!.. Mənim həsrətimdə gələcəyə ümidsən...

SAĞ OL, ANA DİLİM!

Yollarım sınandı yad ölkələrdə,
Neçə yad dodaqda səsləndi adım.
Sağ ol, ana dilim, məni heç yerdə
Köməksiz qoymadın, yalqız qoymadın.

Barmağın altında düymə fırlanır,
Londonla, Parislə yanaşı Bakı...
Doğma sözlər üçün darıxan hamı?
Deyin qoy dinləsin: "Danışır Bakı"!

Danışır, açılır ömrün baharı,
Dünyaya mən onun qoynundan uçdum.
Mənim ürəyimin antenaları
Türkün bu müqəddəs dilinə tuşdu.

Döyüşdə qılınctək sıyrıldı qından,
Başımın üstündə bayrağım oldu.
Torpağım ikiyə bölünən zaman
Bu dil bölünməyən torpağım oldu.

Utansın tarixə dəllallıq edən,
Tarix qapısına açar sözlər var.
Pərdəni qaldırsan beş-on kəlmədən
Qondarma cildlər tarmar olar.

Bu dildə sevincim, qəmim, kədərim,
Təzə ümidlərə açılan səhər.
Bu dilin reaktiv təyyarələri
Araz sərhəddini qıran kəlmələr.

İpək nəğmələrin gülləbatmazdı,
Qolunu qandalla bağlamaq olmaz.
Bu taydan o taya arxayın keçən
O taydan bu taya arxayın keçən.
Dilin sənədini yoxlamaq olmaz,
Sevginin yolunu saxlamaq olmaz!

Sağ ol, ana dilim, ana öyüdüm,
Füzuli eşqindən divanə dilim!
Ürəyim başına nəfəs dərmədən
Fırlanıb kül olan pərvanə dilim!

Hanı Xanım çaylar, hanı bəy göllər?-
Dillərdə cücərən yurdun izidir.
Yüz yol yaralanmış doğma kəlmələr
Xalqımın döyüşlər xəritəsidir.

Qarabağ, Qaradağ... di seç, di ayır,
Dağları basılmaz ordum sanmışam.
Harda bircə kəlmə sözüm yaşayır
Oranı halalca yurdum sanmışam.

Üstünə yüyürdü Quran dilləri,
Peyğəmbər dilləri, qanun dilləri...
Qapılar dalında qoydular səni,
Haqq dedin, dabandan soydular səni,
Ancaq məhv olmadın, anam, can dilim,
Ordular sarsıdan Qəhrəman dilim!

Ömrüm qırılmazdı, yol qırılsa da,
Sənlə həmişə mən üzüağam.
Bədənim torpağa tapşırılsa da,
Ruhumu mən sənə tapşıracağam.

Dubulti, 17.01.1982

RUHUMUZ SƏRHƏDSİZ OLDUĞU ÜÇÜN

Bu vətən deyilən dünyam sirlidi,
Bir paytaxtı sevinc, bir paytaxtı qəm.
Bu Vətən torpağı çox qəribədi,
Hələ sərhəddini tapa bilmirəm!

Arzu da beləcə sərhədsiz olur,
Ümman da beləcə, göy də beləcə.
Ruhumuz sərhədsiz olduğu üçün
Payımız gəlibdi göydən beləcə!..

Belə sonsuzluğun sonsuz qayğısı...
Bəlkə də taleyim düz eləməyir.
Mənə, yurdumuzun son sahilinə
Yetməyə bir ömür bəs eləməyir.

Dünyanın köksündən bir ümman axır,
Yayılır qolları, dəyişir adı.
Yolları Şərurda dayanan xalqın
Qəlbinin paytaxtı Kərbəladadı.[1]

Dərbənd qəbristanı özündən böyük,
Müdrik babamıza dayanacaqdır...
Bir gün Dədəm Qorqud mənə işimcə
Təzə ad verməyə oyanacaqdır!

"İrəvan çuxuru" alışır sazda,
Sinəmə sıxmağa "Göyçə gölüm" var.
Dağların başında Ələsgər kimi
Bizdən uzaq düşən bir küsülüm var.

Gəzəm oba-oba Qarayazını,
Süleyman saz çala, ağlayam zar-zar.

[1] Füzulinin əbədi beşiyi mənasında.